**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**“Geologiya və Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi” publik hüquqi şəxsin Nizamnaməsi”nin təsdiq edilməsi haqqında**

“Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 14 sentyabr tarixli 200-VI FR nömrəli Fərmanının 8.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Geologiya və Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi” publik hüquqi şəxsin Nizamnaməsi” təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, “1” dekabr 2023-cü il

№ 146

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü il 1 dekabr tarixli 146 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

# “Geologiya və Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi” publik hüquqi şəxsin

# NİZAMNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Geologiya və Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi (bundan sonra – Agentlik) Naxçıvan Muxtar Respublikasının ərazisində yer təkinin kompleks geoloji, geofiziki, hidrogeoloji, mühəndis-geoloji, geoekoloji tədqiqatlarının aparılması, yeraltı suların, faydalı qazıntı yataqlarının axtarışı, qiymətləndirilməsi və kəşfiyyatı, yer təkinin dərinlik quruluşunun və seysmohidrogeodinamik şəraitinin öyrənilməsi, sənaye və mülki tikinti obyektlərinin ərazisində mühəndis-geoloji işlərinin həyata keçirilməsi üzrə fəaliyyət göstərən, “Yerin təki haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş yerin təkindən istifadə növləri üzrə fəaliyyətin tənzimlənməsini, habelə yer təkinin istifadəsində və mühafizəsində qanunvericiliyə, müəyyən edilmiş standartlara və tələblərə əməl olunmasına nəzarəti həyata keçirən, yerin təkindən istifadə ilə bağlı hərracların (auksion və ya müsabiqənin) keçirilməsini təşkil edən, bu sahədə (bundan sonra - müvafiq sahə) xidmətlər göstərən publik hüquqi şəxsdir. Agentlik müvafiq sahədə dövlət siyasətinin formalaşmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir, tənzimləməni və nəzarəti həyata keçirir.

1.2. Agentlik Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (bundan sonra - Nazirlik) tabeliyində fəaliyyət göstərir.

1.3. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını və qanunlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, bu Nizamnaməni, digər normativ hüquqi aktları və Naxçıvan Muxtar Respublikası ekologiya və təbii sərvətlər nazirinin əmr və sərəncamlarını rəhbər tutur.

1.4. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.5. Agentlik ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Agentlik bu Nizamnamədə qeyd edilən məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.6. Agentliyin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, üzərində öz adı və "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, həmçinin Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.7. Qanuna uyğun olaraq Agentliyin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Agentlik məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.8. Agentlik Culfa şəhərində yerləşir.

## 2. Agentliyin fəaliyyət istiqamətləri

2.1. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. Naxçıvan Muxtar Respublikasının ərazisində geoloji tədqiqatları təşkil etmək, yer təkinin öyrənilməsi ilə əlaqədar işləri həyata keçirmək və müvafiq xəritələri tərtib etmək;

2.1.2. faydalı qazıntı yataqlarının, o cümlədən yeraltı su ehtiyatlarının axtarışı, qiymətləndirilməsi və kəşfiyyatını təşkil etmək;

2.1.3. Nazirlik tərəfindən verilən dövlət sifarişinə və ayrı-ayrı sifarişçilərlə bağlanmış müqavilələrə əsasən nümunələr üzərində fiziki-kimyəvi, kimyəvi analizlərin, həmçinin yeraltı və yerüstü (şirin, texniki, termal və mineral) sularda kimyəvi, geoloji analizlərin həyata keçirilməsini təşkil etmək;

2.1.4. süxurların tərkibində qara, əlvan və nəcib metalların miqdarını müəyyən etmək;

2.1.5. sənaye və mülki tikinti obyektlərinin ərazisində mühəndis-geoloji və geoekoloji öyrənilmə istiqamətində işləri təşkil etmək;

2.1.6. müvafiq sahədə müşahidə və qiymətləndirilmələrin aparılmasını təşkil etmək və faydalı qazıntı ehtiyatlarının müəyyən edilməsində iştirak etmək;

2.1.7. yerin təkinin geoloji öyrənilməsinə, istifadəsi və mühafizəsinə nəzarət, mineral xammal ehtiyatlarından səmərəli istifadə edilməsi sahəsində dövlət siyasətinin formalaşmasında iştirak etmək və bu siyasətin həyata keçirilməsini təmin etmək;

2.1.8. yerin təkindən istifadə sahəsində tənzimləməni və qanunvericiliyə əməl edilməsinə nəzarəti həyata keçirmək;

2.1.9. müvafiq sahənin, o cümlədən mineral xammal sahəsinin inkişafını təmin etmək;

2.1.10. bu Nizamnamə ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

## 3. Agentliyin vəzifələri və hüquqları

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Agentliyin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahədə normativ hüquqi aktların, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.2. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və Agentliyin səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin muxtar respublikada yerinə yetirilməsini təmin etmək;

3.1.3. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.4. aidiyyəti qurumlarla birlikdə faydalı qazıntı yataqlarının, o cümlədən yeraltı su ehtiyatlarının axtarışı, qiymətləndirilməsi və kəşfiyyatı məqsədilə dövlət sifarişinin hazırlanmasında iştirak etmək və icrasını təmin etmək;

3.1.5. “Yerin təki haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Naxçıvan Muxtar Respublikasının ərazisində yer təkinin öyrənilməsi ilə əlaqədar işləri təşkil etmək;

3.1.6. geoloji tapşırıqlar, dövlət sifarişi əsasında hazırlanmış, təsdiq edilmiş layihə-smeta sənədlərinə əsasən işlərin keyfiyyətli və müəyyən olunmuş müddətdə yerinə yetirilməsini təmin etmək;

3.1.7. dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müraciəti əsasında ekzogen geoloji proseslərə məruz qalmış ərazilərin mühəndis-geoloji şəraiti haqqında, habelə Naxçıvan Muxtar Respublikası ərazisində geoloji, geofiziki, hidrogeoloji və mühəndis-geoloji işlərin aparmasına rəy vermək;

3.1.8. ekzogen geoloji proseslərə qarşı tədbirlərin görülməsi barədə təkliflər vermək;

3.1.9. yeraltı şirin, sənaye, mineral və termal suların rejim və balans elementlərini, çirklənməsini, yer təkinin hidrogeodinamik və yer səthinin radiasiya şəraitini öyrənmək məqsədilə müşahidə aparmaq;

3.1.10. sənaye və mülki tikinti obyektlərinin ərazisində mühəndis-geoloji, geoekoloji və hidrogeoloji şəraitin öyrənilməsi üzrə işləri təşkil etmək;

3.1.11. yerin təkinin dərinlik quruluşunu və seysmohidrogeodinamik şəraitini öyrənmək məqsədilə kompleks geoloji-geofiziki tədqiqatları təşkil etmək;

3.1.12. geoloji strukturların mineral resurslara perspektivliyinin və faydalı qazıntı yataqlarının yerləşmə qanunauyğunluqlarının müəyyən edilməsi məqsədilə müxtəlif istiqamətli proqnoz-metallogenik tədqiqatları təşkil etmək;

3.1.13. geoloji planaalma, axtarış, qiymətləndirmə işlərinin nəticələri haqqında geoloji hesabatlar hazırlamaq;

3.1.14. yerin təkinin geoloji öyrənilməsi, faydalı qazıntı yataqları və yeraltı su mənbələrinin axtarışı, qiymətləndirilməsi və kəşfiyyatı metodikasının, geoloji kəşfiyyat texnikasının və texnologiyasının təkmilləşdirilməsinə dair təkliflərin hazırlanmasında iştirak etmək;

3.1.15. fiziki və hüquqi şəxslərin sifarişi əsasında onların maliyyə vəsaiti hesabına geoloji kəşfiyyat işlərini görmək;

3.1.16. mürəkkəb mühəndis-geoloji şərait mövcud olduqda, kompleks qiymətləndirmə sxeminə əlavə edilməsi nəzərdə tutulan mühəndis-geoloji və hidrogeoloji xəritələrin, mikroseysmik rayonlaşdırma xəritələrinin hazırlanmasında iştirak etmək;

3.1.17. kəşf edilmiş faydalı qazıntı və proqnoz ehtiyatlarının hesabatlarını hazırlamaq və Dövlət Geoloji İnformasiya Fonduna təqdim etmək;

3.1.18. yerin təkində baş verən dəyişikliklərin, o cümlədən ekzogen geoloji proseslərin hidrogeoloji müşahidələrini aparmaq;

3.1.19. yeraltı su obyektlərinin monitorinqini, habelə yeraltı suların istismar ehtiyatlarını müəyyən etməklə dövlət uçotunun aparılmasında iştirak etmək;

3.1.20. peşəkar mütəxəssislər üçün müvafiq sahənin cəlbediciliyinin artırılması məqsədilə tədbirlər görmək;

3.1.21. muxtar respublikada özəl geoloji kəşfiyyat bazarının inkişafını təşviq etmək;

3.1.22. müvafiq sahədə elmi-texniki nailiyyətlərin və biliklərin yayılmasını və müvafiq sahənin maddi-texniki bazasının yenilənməsini təşviq etmək;

3.1.23. mineral ehtiyatlara dair məlumat bazasının yaradılmasında iştirak etmək;

3.1.24. geoloji kəşfiyyat layihələri, planları və smetaları üzrə məsləhət xidmətləri göstərmək;

3.1.25. yerin təkində kəşf edilmiş faydalı qazıntı ehtiyatlarını və yer təkinin xüsusiyyətlərini qiymətləndirən geoloji informasiyanı ekspertizadan keçirmək;

3.1.26. geoloji öyrənilmə məqsədilə ayrılan yer təki sahələrinə geoloji ayırma statusunu vermək;

3.1.27. yer təki sahəsindən faydalı qazıntıların çıxarılması, faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuları tikmək və istismar etmək məqsədilə "dağ-mədən ayırması" statusunu vermək;

3.1.28. yerin təkindən səmərəli istifadəyə, onun mühafizəsinə və geoloji öyrənilməsinə nəzarəti həyata keçirmək;

3.1.29. yerin təkindən səmərəli, kompleks istifadənin təmin edilməsi, mineral xammal bazasının genişləndirilməsi və möhkəmləndirilməsi istiqamətində tədbirlər görmək;

3.1.30. yerin təki "Lisenziyalar və icazələr haqqında" və "Yerin təki haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən olunmuş qaydada istifadəyə verilərkən, dağ-mədən ayırmasının ilkin hüdudlarını müəyyənləşdirmək;

3.1.31. faydalı qazıntı növlərinin istehsal həcmini müəyyənləşdirmək;

3.1.32. ehtiyatları təsdiq edilmiş faydalı qazıntı yataqlarının yerləşdiyi dövlət torpaqlarının icarəyə verilməsinə rəy vermək;

3.1.33. hər il hərraclara (auksion və müsabiqələrə) çıxarılması nəzərdə tutulan yer təki sahələrinin siyahısını hazırlamaq, Nazirliyin rəsmi internet saytında yerləşdirmək, hərracları (auksion və müsabiqələri), "Lisenziyalar və icazələr haqqında" və "Yerin təki haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən olunmuş qaydada yer təkinin istifadəyə verilməsində azad rəqabət mühitini təmin etmək;

3.1.34. yer təki sahələrini birbaşa danışıqlar əsasında "Lisenziyalar və icazələr haqqında" və "Yerin təki haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən olunmuş qaydada istifadəyə vermək;

3.1.35. yer təkinin istifadəsinə və yerin təkindən özbaşına istifadəyə yol verilməməsinə nəzarət etmək;

3.1.36. faydalı qazıntı ehtiyatlarının qiymətləndirilməsi işlərinin və ya faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan məqsədlər üçün istifadəyə verilən yer təki sahəsinin xüsusiyyətlərini təyin edəcək qabaqlayıcı geoloji və geoekoloji işlər aparılmasına nəzarət etmək;

3.1.37. fəaliyyət istiqamətlərinə uyğun olaraq, muxtar respublikada faydalı qazıntıların çıxarılması ilə məşğul olan, bu sahədə fəaliyyət göstərən və fəaliyyəti dayandırılmış fiziki və hüquqi şəxslərin, faydalı qazıntıların çıxarılması üçün istifadə edilən yer təki sahələrinin dəqiq uçotunu, görülən işlərin qanunvericiliyin tələblərinə uyğunluğunu müəyyən etmək;

3.1.38. faydalı qazıntı ehtiyatlarının, eləcə də faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan məqsədlər üçün istifadə edilən yer təki sahələrinin ekspertizasını və uçotunu aparmaq;

3.1.39. faydalı qazıntılar çıxarılarkən təbii ehtiyatlardan kompleks istifadə tələblərinə, o cümlədən faydalı qazıntıların və yanaşı komponentlərin yerin təkindən daha dolğun çıxarılmasına nəzarət etmək;

3.1.40. faydalı qazıntı yataqlarının işlənilməsi zamanı yerin təkindən çıxarılan və yerin təkində saxlanılan faydalı qazıntıların və yanaşı komponentlərin uçotuna nəzarət etmək;

3.1.41. çatlı süxurların və sulu təbəqələrin səthə çıxdığı yerlərdə, habelə içməli su təchizatı və təsərrüfat-məişət ehtiyacları üçün istifadə olunan yeraltı su obyektlərinin sututar sahələrində sənaye və məişət tullantılarının yığılmasının qarşısını almaq üçün aidiyyəti üzrə məsələ qaldırmaq, habelə yeraltı içməli suların minerallaşmış və ya kondisiyaya uyğun gəlməyən sularla qarışması təhlükəsi olan sahələrdə yeraltı içməli suların rejiminə nəzarət etmək;

3.1.42. yerin təkindən istifadədən sonra torpaqların rekultivasiyası qaydalarına əməl edilməsinə nəzarət etmək;

3.1.43. yerin təkindən istifadədə və onun mühafizəsində qanunvericiliyə, müəyyən edilmiş standartlara və tələblərə əməl olunmadıqda, yataqayırma hüdudundan kənara çıxılmaqla faydalı qazıntılar çıxarıldıqda bu sahədə fəaliyyət göstərən müəssisə və obyektlərin fəaliyyətini dayandırmaq, habelə “Lisenziyalar və icazələr haqqında” və “Yerin təki haqqında” Azərbaycan Respublikasının qanunları ilə müəyyən olunmuş qaydada yerin təkindən istifadə üçün verilmiş hüququ dayandırmaq və ya ləğv etmək;

3.1.44. mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, yer təkinin bütün istifadəçilərinin yer təkindən istifadəyə dair müəyyən edilmiş qaydalara, qanunvericiliyin tələblərinə, standartlara, normalara əməl etmələrinə nəzarət etmək;

3.1.45. faydalı qazıntı yataqlarının işlənilməsi ilə əlaqədar olmayan yeraltı qurğuların tikilməsi və istismarı üçün yararlı yer təki sahələri haqqında geoloji informasiyanın ekspertizasını keçirmək;

3.1.46. geoloji kəşfiyyat işlərinin bütün növlərinin ekspertizasını təşkil etmək və layihə-smeta sənədlərini təsdiq etmək;

3.1.47. sənaye əhəmiyyətini itirmiş, yaxud sonrakı istismar-kəşfiyyat işləri və ya yataqların işlənilməsi zamanı təsdiq edilmiş faydalı qazıntıların balans ehtiyatlarını hasilat müəssisələrinin uçotundan silmək barədə təkliflərə baxmaq və müvafiq qərar qəbul etmək;

3.1.48. müvafiq sahənin, o cümlədən Naxçıvan Muxtar Respublikasının mineral xammal bazasının inkişafı üçün investisiyalar cəlb etmək;

3.1.49. yerin təkindən istifadə nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsi və bu sahədə qanun pozuntularına yol vermiş şəxslərin məsuliyyətə cəlb olunması istiqamətində tədbirlər görmək, faydalı qazıntı yataqlarının işlənilməsi, dağ-mədən sənayesinin istehsalat tullantılarından istifadədə müəyyən edilmiş normalara və qaydalara, habelə faydalı qazıntı karxanalarının rekultivasiyasına və keyfiyyətinə, onların istifadəçilərə verilməsi müddətinə nəzarət etmək;

3.1.50. müvafiq sahədə normativ hüquqi aktların, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.51. müvafiq sahədə inzibati xəta əlamətləri aşkar etdikdə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görmək, cinayət əlamətləri olduqda isə aidiyyəti üzrə məlumat vermək;

3.1.52. dövlət orqanları və qurumlarının, yerli özünüidarətmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətini əlaqələndirmək;

3.1.53. müvafiq sahədə elektron xidmətləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun təşkil etmək;

3.1.54. Agentliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.55. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, Agentlik əməkdaşlarının əlavə təhsilinin və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.56. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin saytında yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.57. Agentliyə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.58. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.59. Agentliyin informasiya təminatını və onun təhlükəsizliyini təmin etmək;

3.1.60. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.61. müvafiq sahədə mütəxəssislərin hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı təkliflər vermək və onların həyata keçirilməsində iştirak etmək;

3.1.62. yerin təki haqqında qanunvericiliyin tələbləri və onlara əməl olunması sahəsində mütəmadi maarifləndirmə və təbliğat işləri aparmaq;

3.1.63. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Agentliyin aşağıdakı hüquqları vardır:

3.2.1. müvafiq sahədə, o cümlədən, yer təkindən istifadə və onun mühafizəsi sahəsində normativ hüquqi aktların layihələrinin qəbul olunması, aktlarda dəyişikliklər edilməsi, aktların şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təkliflər vermək;

3.2.2. yerin təkindən istifadə və onun mühafizəsi, mineral xammal ehtiyatlarının səmərəli işlənməsi qaydalarının müəyyənləşdirilməsinə dair təkliflər vermək;

3.2.3. ümumi yayılmış faydalı qazıntıların siyahısının müəyyənləşdirilməsi üçün təkliflər vermək;

3.2.4. faydalı qazıntı yataqlarının axtarışı və kəşfiyyatı metodikasının, geoloji kəşfiyyat texnikasının və texnologiyasının təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq;

3.2.5. yer təkinin öyrənilməsində elmi-təcrübi əhəmiyyəti olan kern və nümunələrin saxlanılması və qorunması qaydasının müəyyənləşdirilməsinə dair təkliflər vermək;

3.2.6. mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, müəssisə və təşkilatlardan yerin təkindən istifadə haqqında Nazirliyin müəyyən etdiyi hesabat formaları üzrə məlumatları, habelə mədən vergisi ödəyicilərindən faydalı qazıntıların hasil edilmiş həcmi haqqında ildə bir dəfə hesabat balansı almaq;

3.2.7. yerin təkindən istifadə edilərkən, zərərli maddələr və istehsal tullantıları basdırılarkən, çirkli sular axıdılarkən yer təkinin, faydalı qazıntı yataqlarının olduğu yerlərin çirklənməsinə və yeraltı işlərin aparılmasına təhlükə yarandığı hallarda, faydalı qazıntı laylarının olduğu və yeraltı işlərin aparıldığı yerlərdə istehsalat və məişət tullantılarının basdırılmasının qarşısının alınması üçün aidiyyəti üzrə müraciət etmək;

3.2.8. beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.9. yer təkindən istifadə və onun mühafizəsi sahəsində qanunvericiliyə əməl edilməsinə nəzarəti həyata keçirmək məqsədilə yoxlamalar aparmaq, icrası məcburi olan göstərişlər vermək və bundan irəli gələn digər tədbirlər görmək;

3.2.10. fəaliyyət istiqamətləri üzrə araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.11. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.12. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər, ümumiləşdirmələr, tədqiqatlar aparmaq, analitik materiallar hazırlamaq;

3.2.13. müstəqil ekspertləri, mütəxəssisləri və qiymətləndiriciləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətlərinə, o cümlədən Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən yataqların qiymətləndirilməsinə cəlb etmək;

3.2.14. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.15. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.16. sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.17. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.18. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 4. Agentliyin idarə olunması

4.1. Agentlik öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. Agentliyin idarəetmə orqanı onun İdarə Heyətidir.

4.3. Agentliyin İdarə Heyəti (bundan sonra - İdarə Heyəti) Agentliyin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir. İdarə Heyətinin tərkibi 3 (üç) üzvdən - Naxçıvan Muxtar Respublikası ekologiya və təbii sərvətlər nazirinin vəzifəyə təyin və vəzifədən azad etdiyi İdarə Heyəti sədrindən və onun 2 (iki) müavinindən ibarətdir.

4.4. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda onun səlahiyyətlərini müvafiq əmrlə İdarə Heyəti sədrinin müavinlərindən biri icra edir.

4.5. İdarə Heyətinin vəzifələri aşağıdakılardır:

4.5.1. Agentliyin fəaliyyətini təşkil etmək və ona nəzarət etmək;

4.5.2. təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün Nazirliyə təkliflər vermək və sənədlər (o cümlədən Agentliyin maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.5.3. Agentliyin strateji məqsədini və planlarını müəyyən etmək, inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi məqsədilə Nazirliyə təkliflər vermək;

4.5.4. Agentliyin maliyyə planlaşdırmasını və büdcəsini Nazirliklə razılaşdırmaqla təsdiq etmək;

4.5.5. Agentliyin strateji məqsədinin və planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək;

4.5.6. Agentliyin strukturunun, əməyin ödənişi fondunun, işçilərin say həddinin və onların əməkhaqlarının məbləğinin (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) təsdiq edilməsi, o cümlədən Agentliyin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər

fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sisteminin müəyyənləşdirilməsi üçün Nazirliyə təkliflər vermək;

4.5.7. Nazirliyin razılığı ilə Agentliyin təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə, həmçinin Agentliyin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.5.8. Agentliyin fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), habelə idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, təsərrüfat cəmiyyətlərinin nizamnamələrini təsdiq etmək;

4.5.9. Agentliyin fəaliyyətinə dair illik hesabatı dinləmək;

4.5.10. Agentlikdə daxili audit bölməsi yaratmaq, həmin bölmənin fəaliyyətinə nəzarət etmək və fəaliyyətinə dair hesabatlar almaq, habelə onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

4.5.11. Agentliyin kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək;

4.5.12. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.5.13. Nazirliyin razılığı ilə Agentliyin xalis aktivlərinin dəyərinin 50 (əlli) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul etmək;

4.5.14. aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul etmək;

4.5.15. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.5.16. bu Nizamnamənin 3.1.57-ci yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.5.17. bu Nizamnamənin 3.1.50-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görmək;

4.5.18. İdarə Heyəti sədrinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək.

4.6. İdarə Heyətinin sədri ayda bir dəfədən az olmayaraq İdarə Heyətinin iclaslarını çağırır və iclaslara sədrlik edir. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvü çıxış edir. İdarə Heyətinin iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasında, hər üzvün bir səsi olmaqla qərarlar açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul edilir.

Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslərin sayı bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

4.7. İdarə Heyətinin üzvlərinə və İdarə Heyətinin iclaslarına dəvət olunan şəxslərə iclasın keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.8. İclasın gündəliyinə İdarə Heyətinin hər hansı üzvünün maraqlarına toxunan məsələ daxil edildikdə, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.9. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan əvvəl təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla qərar qəbul edilə bilməz.

4.10. İdarə Heyətinin sədri:

4.10.1. Agentliyin cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

4.10.2. İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclasların gündəliyini müəyyənləşdirir və iclaslara sədrlik edir;

4.10.3. öz təşəbbüsü və ya İdarə Heyətinin digər üzvünün təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

4.10.4. öz təşəbbüsü ilə, habelə İdarə Heyətinin digər üzvünün xahişi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

4.10.5. Agentliyin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.10.6. Agentliyin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.10.7. özünün və Agentliyin struktur bölmələrinin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.10.8. Nazirliyin müəyyən etdiyi struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Agentliyin Aparatının və digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq edir;

4.10.9. Agentliyin işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil edir;

4.10.10. bu Nizamnamə ilə müəyyən edilmiş hallar istisna olmaqla, Agentliyin, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə

tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsinə, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsinə dair qərarlar qəbul edir;

4.10.11. Agentliyin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.10.12. bu Nizamnamə ilə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində Agentliyin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.10.13. Agentliyin fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.10.14. Agentliyin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.10.15. Agentlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.10.16. Agentlikdə müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir.

4.11. İdarə Heyətinin üzvləri:

4.11.1. İdarə Heyətinin səlahiyyətlərinə aid olan məsələlərin həllində iştirak edirlər;

4.11.2. İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.11.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

4.11.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə onun iclaslarında baxmaq barədə təkliflər verirlər;

4.11.5. İdarə Heyətinin qərarları, iclas protokolları və digər sənədlərlə tanış olurlar.

4.12. İdarə Heyətinin üzvləri onun iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyəti üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməli, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

## 5. Agentliyin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları

5.1. Agentliyin nizamnamə fondu 1513174,0 (bir milyon beş yüz on üç min yüz yetmiş dörd) manatdır.

5.2. Agentliyin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin muxtar respublika büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3. Agentlik öz əmlakından yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Agentlik balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Agentliyin mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Nazirliyin qərarı ilə muxtar respublika büdcəsinə köçürülür.

5.5. Agentlik qanunda nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra Agentliyin, onun idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.6. Agentliyin məhsullarının (malların, işlərin, xidmətlərin) qiymətləri tənzimlənməyən qiymətlərə (tariflərə) aiddir.

## 6. Agentliyin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi

6.1. Agentliyin fəaliyyətinə nəzarəti Nazirlik, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada İdarə Heyəti həyata keçirirlər.

6.2. Agentliyin fəaliyyətinə dair illik hesabat Nazirliyə təqdim edilir.

## 7. Agentlikdə uçot və hesabat

7.1. Agentlik "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Agentlik "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3. Agentlik idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. Agentlik öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

## 8. Agentliyin ləğvi və yenidən təşkili

Agentliyin ləğvini və yenidən təşkilini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri həyata keçirir.